



«ƏLİ NƏZMİ»

ƏDƏBİ BİRLİYİ

№1

**«Əli nəzmi» Ədəbi Birliyi bülleteninin ilk sayı.**

---

**Ələsgər ƏLİOĞLU**

## Mənim bu yacışdan gözüm su içmir

*Bir gün baxıb gördüm ki,*
*çirkli yağış yağır.*

Necə də bərk tutub yükünü axı,
(Nə yaman batırıb kürkünü axı!?)
Hardan qarışdırıb kökünü axı,
Mənim bu yağışdan gözüm su içmir.

Özündən də qabaq kölgəsi düşür,
Baxanın ağzından öfkəsi düşür!..
Üstümə-başıma ləkəsi düşür,
Mənim bu yağışdan gözüm su içmir.

Lillə doldurubmu öz tuluğunu,
Yazdan çətin alar muştuluğunu...
Qoruya da bilmir duruluğunu,
Mənim bu yağışdan gözüm su içmir.

Nüvə dünyasından ünvan gətirər,
Həm qada gətirər, həm qan gətirər.
Qanadının altda uran gətirər,
Mənim bu yağışdan gözüm su içmir!..
Mənim bu yağışdan gözüm su içmir!..

**13.11.2022**

Türküstan.- 2023- cü il.- 24- 30 oktyabr.- S. 11.- № 38.